<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>ART 301 Rəngkarlıq 3, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Memarlıq və dizayn departamenti</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Həsənov Həsənağa Ədalət oğlu<br>Nigar Əliyeva Elxan qızı</td></tr>
<tr><td>E-mail:</td><td>hasan.hasanaga@khazar.org<br>aliyeva.nigar@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Məsləhət günləri və saatları</td><td>Tələbələrlə razılaşdırılan günlərdə</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Rəngkarlıq-2</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">Əsas dərsliklər:<br>1. James Gurney — Color and Light: A Guide for the Realist Painter — 2010.<br>2. David Hornung — Colour: A Workshop for Artists and Designers — (əvvəlki nəşrlər 2004–2005; son yenilənmiş nəşrləri 2010s/3rd ed.)<br>3. İnternet resursları</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Bu fənnin nəzəri və praktiki formada keçirilməsi təsviri incəsənət müəllimliyinin tələbələri üçün rəng məsələsinin həllinə böyük kömək göstərir. Belə ki, tələbələr nəzəri biliklərini praktik işlərində tətbiq etməklə ərsəyə gətirdikləri rəngkarlıq kompozisiyaları daha da dəqiq və iradsız olur. Həmçinin tələbələrin nəzəri bilikləri gələcəkdə onların müəllim kimi işləməsinə böyük köməklik göstərir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="2">Bu fənnin tədris olunmasında əsas məqsəd, tələbələrin rəng nəzəriyyəsi və rəngkarlığın bəzi texnikalarını praktiki olaraq öyrənmələridir. Bu fənnin tədris olunmasında əsas məqsəd, tələbələrin rəng nəzəriyyesi və rəngkarlığın bəzi texnikalarını praktiki olaraq öyrənmələridir. Bu fənn formal nisbətlərə əsas obyektin mərkəzdə yerləşdirilməsi; işıqkölgə, rəng münasibətləri; isti-soyuq rəng çalarları; rəngləmə materiallarının texnologiyası haqqında ümumi anlayış; rəsm texnikası; akvarel, akril, quaş və yağlı boyalarla işləmək; təbiətdən tədqiqatlar aparmaq; fiqurın plastik strukturunun aspektinə diqqət yetirilməkdir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="2">Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>• Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etməyi bacaracaq;<br>• Rəngkarlığı praktik olaraq öyrənməklə təcrübələrini rəssamlığın müxtəlif şaxələrində işlədikdə tətbiq edə biləcək;<br>• Azərbaycanda ümumtəhsil məktəblərində müəllim kimi işləmək üçün bu fənnin nəzəri və praktik tərəfini biləcək;<br>• İcra etdiyi layihələrə daha da yaradıcı və müasir tələblərə uyğun yanaşa biləcək ;<br>• Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etməyi bacaracaq;</td></tr>
</table>

<table>
<tr><td rowspan="5">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2"></td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">-</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">-</td></tr>
<tr><td>Digər</td><td colspan="2"></td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5 bal</td></tr>
<tr><td>Tapşırıq 1</td><td></td><td>15 bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>25 bal</td></tr>
<tr><td>Aktivlik</td><td></td><td>10 bal</td></tr>
<tr><td>Tapşırıq 2</td><td></td><td>15bal</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>30 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td>Qaydalar<br>(Tədris siyasəti və davranış)</td><td colspan="3">Davamiyyət<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. Tələbələr müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Tapşırıq<br>Tapşırıqlara ayrılan 30 balın 15 balı aralıq imtahanına qədər işlənilən tapşırıq üçün, qalan 15 bal isə aralıq imtahanından sonra finala qədər işlənilən 1 taşırıq üçün nəzərdə tutulur.<br>Aktivliyə ayrılan 10 bal issə dərs zamanı tələbənin aktivliyi və ev tapşırıqlarına nəzərdə tutulub.<br>İmtahanlar<br>Aralıq və final imtahanı hər ikisi təcrübi şəkildə keçirilir. Belə ki, imtahan üçün ayrılan 3 saat ərzində tələbələr qurulan natürmortu qara qələmlə təsvir edib və rəng olaraq sulu boyadan istifadə edərək tamamlamalıdırlar. Nəticədə bütün işlər kodlaşdırılıb və kurs müəlliminin tərəfindən dəyərləndirilir. Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>Fənni bitirmək qaydası<br>Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>İmtahan qaydalarının pozuntuları<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>Tələbənin davranış qaydaları<br>Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir.</td></tr>
</table>

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | | **Birinci tapşırıq:** Mürəkkəb naturmortun qurulması və üfüqü rəngdə təsviri. Parça, əşya və handəsi fiqurdan istifadə edərək naturmortun vertikal şəkildə qurulması. | 1. səh: 1-14<br>Praktiki tapşırığın yerinə yetirilməsi |
| 2. | | Naturmortun karandaşda komponovkası və təsviri | 2. səh: 1-12<br>3. İnternet resursları<br>Praktiki tapşırığın yerinə yetirilməsi |
| 3. | | Əşyaların bir-birinə nisbətən müstəvidə və fəzada yerləşməsinin qarşılıqlı əlaqəsi, əşyaların forması, onların maddiliyi və məkanı, ilk növbədə, tonla təsvir olunması texnikasının tətbiqi. | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 4. | | Naturmotda qaranlıqdan işığa qədər olan tonları tam olaraq görməyi öyrətmək və rəngdə tətbiq etmək | 1. Səh: 15-22<br>Praktiki tapşırığın yerinə yetirilməsi |
| 5. | | Rəngdə tekstura yaratmaq və tekstura vasitəsi ilə müxtəlif materialların işlənməsi . | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 6. | | İşıq, yarım ton, kölgə, refleks, kölgələrin düşməsinin təsviri | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 7. | | Birinci tapşırığın yekunlaşması<br>**İkinci tapşırıq:** Mürəkkəb naturmortun horizontal şəkildə qurulması. | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 8. | | **Aralıq imtahanı** | |
| 9. | | Naturmortun karandaşda komponovkası və təsviri | 1. 12-20<br>2. İnternet resursları<br>Praktiki tapşırığın yerinə yetirilməsi |
| 10. | | Müxtəlif əhəmiyyətli obyektlərin təsviri üçün zəruri tonal kontrast anlayışı ilə tanışlıq və tətbiqi. | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 11. | | Müxtəlif teksturalı formaların və şəffaf şüşə qabın təsvir etmək qaydaları.<br>Onların konturlarının və formanı bir-birində əks olunma texnikasını rəngdə təsviri. | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 12. | | Rəngdə tekstura yaratmaq və tekstura vasitəsi ilə müxtəlif materialların işlənməsi . | 1. 23-31<br>2. 21-28<br>Praktiki tapşırığın yerinə yetirilməsi |
| 13. | | İşıq, yarım ton, kölgə, refleks, kölgələrin düşməsinin təsviri | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 14 | | Tapşırığın yekunlaşması | Praktiki tapşırığın yerinə yetirilməsi |
| 15 | | Tapşırığın qəbulu | |
| **Final imtahanı** | | | |

**Təsdiq edir:** Dos. Abbasova Ş.A.____________________

Memarlıq və dizayn departamentinin rəhbəri